Yaşıl dünya naminə həmrəy olaq!




*COP - İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası insanın iqlim mühitinə təhlükəli müdaxiləsinin qarşısını almaq məqsədilə 1992-ci ilin iyununda Rio-de-Janeyro şəhərində keçirilmiş Yer Sammitində imzalanmış sazişdir. COP (Conference of Parties) abreviaturunun ingilis dilindən tərcüməsi Tərəflər Konfransı deməkdir. Tərəflərin Konfransı İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının icrasına nəzarət edən ali qərarverici orqandır. Bu Konvensiyaya üzv olan 190-dan çox ölkə var.*

*Ötən il dekabrın 11-də Dubayda COP28-in plenar iclasında COP29-un bu il Azərbaycanda keçirilməsi haqqında qərar qəbul olunub.*

# "Yaşıl dünya" naminə birlikdə: yerli aqro-məhsullarla dayanıqlı turizmin inkişafı

**Noyabrın 19-da COP29 çərçivəsində "Azərsun Holdinq"in əməkdaşlığı ilə "Slow Food, Low Impact: Yerli kənd təsərrüfatı məhsullarından istifadə etməklə dayanıqlı turizmin inkişafı" mövzusunda tədbir keçirildi. Tədbir iqlim dəyişmələri fonunda dayanıqlı qida istehsalı və turizmin inkişafını müzakirə etmək üçün unikal platforma oldu.**

Tədbirin əsas çıxışçılarından biri olan **"Azərsun Holdinq"in baş icraçı direktoru Savaş Uzan** qeyd etdi ki, qlobal iqlim dəyişmələrinin qarşısını almaq üçün hər bir biznes subyektinin öz məsuliyyətini dərk etməsi zəruridir. O vurğuladı ki, "Azərsun Holdinq" olaraq yerli aqro-məhsulların istehsalına və təbliğinə xüsusi diqqət yetirərək, həm ekosistemi qorumağa, həm də dayanıqlı iqtisadiyyatın inkişafına töhfə veririk.

**"Slow Food" təşkilatının prezidenti Edward Mukiibi** isə yerli qida məhsullarının turizm sektorunda istifadəsinin bənzərsiz mədəniyyətlər arasında körpü yaratdığını bildirdi. Qeyd etdi ki, yerli məhsullar həm də insanların, tarixini, mədəniyyətini və ənənələrini yaşadır.

Tədbir yalnız biznes və sənaye nümayəndələrini deyil, həm də akademik dairələri və qeyri-hökumət təşkilatlarını da bir araya gətirdi. **Kembric Universitetinin professoru Nazia M.Habib** dayanıqlılıq üzrə akademik araşdırmaların real sektorla necə sinerji yarada biləcəyindən bəhs etdi. Onun fikrincə, bu kimi tədbirlər həm elmi, həm də praktiki biliklərin geniş auditoriyaya çatdırılması üçün əvəzolunmazdır.






**COP29-un dayanıqlılıq üzrə məsləhətçisi Marina Olshanskaya** iqlim tədbirlərində daha çox yerli bizneslərin iştirakını təşviq etdi və bildirdi ki, böyük dəyişikliyə yalnız böyük korporasiyalar deyil, yerli icmalar da imza ata bilərlər.

Azərbaycanda fəaliyyət göstərən **"Razi Farm" şirkətinin təsisçisi Fərid Axundov** isə çıxışında kənd təsərrüfatında innovasiyaların tətbiqi və məhsul ixracının genişləndirilməsi istiqamətində əldə olunan nailiyyətlərdən danışdı. Vurğuladı ki, bu cür təşəbbüslər Azərbaycanın beynəlxalq səviyyədə dayanıqlı qida istehsalçısı kimi tanınmasına xidmət edir.

**Tədbirin moderatoru, Azərbaycan Turizm Bürosunun baş icraçı direktoru Florian Zenqstşmid** Azərbaycanın turizm sektorunda dayanıqlılığın inkişaf etdirilməsinin vacibliyini qeyd etdi. Onun sözlərinə görə, ölkəmiz zəngin təbiəti və mədəni irsi ilə dayanıqlı turizm üçün böyük potensiala malikdir.

Tədbirin yekununda iştirakçılar iqlim dəyişmələri ilə mübarizə üçün birgə səylərin artırılmasının vacibliyini vurğuladılar, həmçinin Azərbaycanda dayanıqlı turizmin və yerli məhsul istehsalının inkişaf etdirilməsinin qlobal iqlim hədəflərinə çatmaq üçün mühüm bir addım olduğunu bildirdilər.

Bəli, "yaşıl dünya"nın gələcəyini təmin etmək üçün hər kəs öz üzərinə düşəni etməlidir. Çünki yalnız birlikdə çalışaraq bəşəriyyət üçün daha sağlam, yaşıl və dayanıqlı bir gələcək qura bilərik.

**Yusif ŞƏRİFZADƏ,**
**"Respublika".**